UOT32
https://doi.org/10.30546/ifs.2026.2.47.1351

QAYIDIŞ HÜQUQUNUN BEYNƏLXALQ-HÜQUQİ ƏSASLARI VƏ TƏTBİQ MEXANİZMLƏRİ: QƏRBİ AZƏRBAYCAN KONTEKSTİNDƏ KONSEPTUAL MODEL

Xalid Niyazov
siyasi elmlər doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
xalidniyazov@gmail.com
https://orcid.org/0000-0002-2712-7410

Xülasə. Məqalədə qayıdış hüququnun beynəlxalq-hüquqi əsasları, onun nəzəri-doktrinal inkişaf mərhələləri və postmünaqişə reallıqlarında tətbiq mexanizmləri kompleks şəkildə təhlil olunur. Tədqiqat çərçivəsində qayıdış hüququnun yalnız klassik insan hüquqları kateqoriyasına aid normativ hüquq kimi deyil, çoxsəviyyəli və funksional hüquqi institut kimi formalaşdığı əsaslandırılır.Müqayisəli hüquqi yanaşma əsasında Bosniya, Kosovo və Kipr modelləri sistemli şəkildə araşdırılır, bu modellərin normativ, institusional və prosessual xüsusiyyətləri təhlil edilir. Xüsusi diqqət mülkiyyət hüququnun qayıdış hüququnun reallaşmasında oynadığı rola yönəldilir və restitusiya mexanizminin prioritet hüquqi vasitə kimi üstünlüyü əsaslandırılır. Bununla yanaşı, kompensasiya mexanizminin hüquqi sərhədləri və tətbiq şərtləri müəyyən edilir.

Məqalədə beynəlxalq məhkəmə presedentləri, xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları əsasında “davam edən pozuntu” doktrinası və onun qayıdış hüququnun zaman baxımından tətbiqinə təsiri təhlil olunur. Eyni zamanda, beynəlxalq təminat mexanizmləri – təhlükəsizlik, monitorinq, verifikasiya və keçid dövrü idarəetməsi – vahid hüquqi sistem kimi konseptuallaşdırılır.

Açar sözlər: qayıdış hüququ, restitusiya, beynəlxalq hüquq, məcburi köçkünlər, mülkiyyət hüququ, AİHM, postmünaqişə tənzimlənməsi, hüquqi mexanizm, beynəlxalq təminatlar

INTERNATIONAL LEGAL FOUNDATIONS OF THE RIGHT OF RETURN AND ITS IMPLEMENTATION MECHANISMS: A CONCEPTUAL MODEL IN THE CONTEXT OF WESTERN AZERBAIJAN

Khalid Niyazov

Abstract. This article provides a comprehensive analysis of the international legal foundations of the right to return, its doctrinal evolution, and the mechanisms for its implementation in post-conflict contexts. It argues that the right to return should not be understood merely as a classical individual human right, but rather as a complex, multi-level, and functional legal institution shaped by the interaction of normative frameworks, institutional mechanisms, and practical enforcement processes. Using a comparative legal approach, the study systematically examines post-conflict models of return in Bosnia and Herzegovina, Kosovo, and Cyprus. Their normative, institutional, and procedural characteristics are analyzed, highlighting both similarities and differences in the implementation of the right to return. Particular emphasis is placed on the role of property rights as a central element of this right, as well as on the primacy of restitution as the principal mechanism for restoring violated rights.

The article also addresses the limitations of compensation as a subsidiary mechanism, applicable only when restitution is not feasible. Drawing on the case-law of the European Court of Human Rights, the study explores the doctrine of “continuing violation” and its implications for the temporal and legal scope of the right to return.

Keywords: right to return, restitution, international law, internally displaced persons, property rights, ECtHR, post-conflict settlement, international guarantees, legal mechanism

МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ОСНОВЫ ПРАВА НА ВОЗВРАЩЕНИЕ И МЕХАНИЗМЫ ЕГО РЕАЛИЗАЦИИ: КОНЦЕПТУАЛЬНАЯ МОДЕЛЬ В КОНТЕКСТЕ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

Халид Ниязов

Резюме. В статье проводится комплексный анализ международно-правовых основ права на возвращение, его теоретико-доктринального развития и механизмов реализации в постконфликтных условиях. Обосновывается, что право на возвращение не следует рассматривать исключительно как классическое индивидуальное право человека; оно представляет собой сложный, многоуровневый и функциональный правовой институт, формирующийся на стыке норм международного права, институциональных механизмов и практики их применения.

На основе сравнительно-правового подхода системно исследуются модели постконфликтного возвращения в Боснии и Герцеговине, Косово и на Кипре. Анализируются их нормативные, институциональные и процессуальные особенности, выявляются сходства и различия в подходах к обеспечению права на возвращение. Особое внимание уделяется роли права собственности как ключевого элемента реализации данного права, а также обосновывается приоритет реституции как основного механизма восстановления нарушенных прав.

Ключевые слова: право на возвращение, реституция, международное право, вынужденные переселенцы, право собственности, Европейский суд по правам человека (ЕСПЧ), постконфликтное урегулирование международные гарантии, правовой механизм

Giriş

Müasir beynəlxalq hüquq sistemində qayıdış hüququ postmünaqişə tənzimlənməsinin mərkəzi institutlarından biri kimi çıxış edir. XX əsrin sonu – XXI əsrin əvvəllərində baş vermiş regional münaqişələr nəticəsində milyonlarla insanın məcburi köçkün və qaçqın statusu alması bu hüququn yalnız normativ deyil, həm də praktik əhəmiyyətini artırmışdır. Qayıdış hüququnun effektiv həyata keçirilməsi isə onun yalnız beynəlxalq sənədlərdə təsbit olunması ilə deyil, kompleks hüquqi və institusional mexanizmlərlə təmin edilməsindən asılıdır.

Tədqiqatın məqsədi qayıdış hüququnun beynəlxalq-hüquqi əsaslarını, onun tətbiq mexanizmlərini və postmünaqişə reallıqlarında realizə modellərini kompleks şəkildə təhlil etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir: qayıdış hüququnun beynəlxalq hüquqda doktrinal əsaslarının araşdırılması, mülkiyyət hüququ və restitusiya mexanizminin təhlili, beynəlxalq presedentlərin və müqayisəli praktikanın öyrənilməsi, qayıdış hüququnun təminat sisteminin müəyyən edilməsi, Qərbi Azərbaycan kontekstində tətbiq oluna biləcək hüquqi modelin işlənməsi

Beynəlxalq hüquqda qayıdış hüququnun doktrinası

Müasir beynəlxalq hüquq sistemində qayıdış hüququ postmünaqişə tənzimlənməsinin mərkəzi institutlarından biri kimi çıxış edir. XX əsrin sonu – XXI əsrin əvvəllərində baş vermiş regional münaqişələr nəticəsində milyonlarla insanın məcburi köçkün və qaçqın statusu alması bu hüququn yalnız normativ deyil, həm də praktik əhəmiyyətini artırmışdır. Qayıdış hüququnun effektiv həyata keçirilməsi isə onun yalnız beynəlxalq sənədlərdə təsbit olunması ilə deyil, kompleks hüquqi və institusional mexanizmlərlə təmin edilməsindən asılıdır.

Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı beynəlxalq hüququn fundamental prinsiplərinə söykənən hüquqdur. Beynəlxalq hüquqda qayıdış hüququnun normativ əsasları Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (1966), eləcə də regional hüquqi sənədlərdə təsbit olunmuşdur. Bununla yanaşı, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ və BMT mexanizmləri bu hüququn tətbiq sahəsini genişləndirmiş və onun doktrinal əsaslarını dərinləşdirmişdir.

Qayıdış hüququ müasir beynəlxalq insan hüquqları institutunun fundamental kateqoriyalarından biri olub, şəxsin əvvəlki yaşayış yerlərinə – o cümlədən, mənşə ərazisinə, daimi yaşayış yerinə və ya mülkiyyətinə qayıtmaq imkanını təsbit edən universal hüquqi norma kimi nəzərdən keçirilir. Beynəlxalq-hüquqi doktrinada bu hüquq ayrı-seçkiliyin qadağan olunması prinsipi, mülkiyyət hüququnun müdafiəsi, şəxsi və ailə həyatına hörmət hüququ, eləcə də şəxsin öz mənşə ərazisində yaşamaq imkanından özbaşına məhrum edilməsinin yolverilməzliyi ilə sıx bağlıdır.

Bu hüququn daha konkret hüquqi ifadəsi 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapmışdır. Həmin sənədin 12-ci maddəsinin 4-cü bəndinə əsasən, heç kəs öz ölkəsinə daxil olmaq hüququndan özbaşına məhrum edilə bilməz [2]. Hüquqi doktrinada vurğulanır ki, “öz ölkəsi” anlayışı daha geniş məna daşıyır və yalnız vətəndaşlıq əsasında deyil, həm də daimi yaşayış yeri və ya mənşə ilə bağlılığı əhatə edə bilər. Bu yanaşma qayıdış hüququnun tətbiq sahəsini genişləndirir [11] və onu məcburi köçkünlərə də şamil etməyə imkan verir.

Qayıdış hüququnun tənzimlənməsində regional beynəlxalq hüquq mexanizmləri də mühüm rol oynayır. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasında bu hüquq ayrıca norma kimi birbaşa təsbit olunmasa da, onun təminatları bir sıra müddəaların sistemli şərhi nəticəsində formalaşır. Bunlara Konvensiyanın 8-ci maddəsi (şəxsi və ailə həyatına hörmət hüququ), 1 saylı Protokolun 1-ci maddəsi (mülkiyyət hüququnun müdafiəsi), eləcə də 4 saylı Protokolun 3-cü maddəsi (vətəndaşların ölkədən çıxarılmasının qadağan olunması və öz ölkəsinə daxil olmaq hüququ) daxildir [3].

Beynəlxalq-hüquqi doktrinada qayıdış hüququnun mülkiyyət hüququ ilə sıx əlaqəsi xüsusi vurğulanır. Əhalinin məcburi köçürülməsi və geriqayıdış imkanının olmaması, bir qayda olaraq, şəxslərin onlara məxsus əmlakdan məhrum edilməsi ilə müşayiət olunur ki, bu da insan hüquqlarının kompleks pozuntusunu formalaşdırır. Bu baxımdan qayıdış hüququ yalnız humanitar kateqoriya kimi deyil, həm də məcburi köçkünlərin əmlak və şəxsi hüquqlarının bərpasına yönəlmiş hüquqi mexanizm kimi çıxış edir.

Qayıdış hüququ doktrinasının inkişafında qaçqınların və məcburi köçkünlərin mənzil və mülkiyyət hüquqlarının bərpasına dair beynəlxalq prinsiplər – Pinheiro prinsipləri mühüm rol oynayır. Bu prinsiplərə əsasən, qaçqınlar və məcburi köçkünlər könüllü şəkildə öz evlərinə, torpaqlarına və yaşayış yerlərinə qayıtmaq hüququna malikdirlər, dövlətlər isə bu hüquqların bərpasını və ya adekvat restitusiyanı təmin etməlidirlər [4].

Müasir beynəlxalq-hüquqi doktrinada qayıdış hüququ zaman baxımından məhdudlaşdırılmayan, yəni “davam edən hüquq” kimi nəzərdən keçirilir. Bu o deməkdir ki, həmin hüququn pozuntusu şəxs öz hüquqlarını bərpa edənədək davam edir. Bu yanaşma beynəlxalq məhkəmə orqanlarının, xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsinin praktikasında öz təsdiqini tapmışdır. Məhkəmə mülkiyyətə və əvvəlki yaşayış yerinə çıxışın olmamasını davam edən hüquq pozuntusu kimi qiymətləndirir. Eyni məntiq Qərbi azərbaycanlıların qayıdışını və əmlak iddialarını hüquqi cəhətdən legitimləşdirir.

Qayıdış hüququnun doktrinası beynəlxalq məhkəmə və kvaziməhkəmə orqanlarının praktikasında daha da inkişaf etmişdir. Bu hüquq daha geniş insan hüquqları sisteminin tərkib hissəsi kimi nəzərdən keçirilir. Xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsi belə yanaşma formalaşdırmışdır ki, şəxsin öz mülkiyyətindən istifadə etmək və əvvəlki yaşayış yerində yaşamaq imkanından məhrum edilməsi davam edən hüquq pozuntusudur.

Bu yanaşma “Loizidou Türkiyəyə qarşı” işi üzrə qərarda açıq şəkildə ifadə olunmuşdur. Məhkəmə müəyyən etmişdir ki, ərizəçinin Şimali Kipr ərazisində yerləşən mülkiyyətindən istifadə edə bilməməsi 1 saylı Protokolun 1-ci maddəsinin davam edən pozuntusudur [7].

Həmin doktrina daha sonra “Kipr Türkiyəyə qarşı” işi üzrə inkişaf etdirilmişdir. Məhkəmə qeyd etmişdir ki, köçürülmüş şəxslərin mülkiyyətlərinə və yaşayış yerlərinə çıxışının məhdudlaşdırılması sistemli hüquq pozuntusu təşkil edir və effektiv restitusiya mexanizmlərinin yaradılmasını tələb edir [8]. Bu qərarda dövlətlərin yalnız kompensasiya verməklə kifayətlənməyib, hüquqların real bərpasını təmin etməli olduğu vurğulanmışdır.

Avropa İnsan Hüquqları Məhkəməsinin digər qərarlarında da bu yanaşma təsdiqlənmişdir. Məhkəmə belə halları zaman keçdikcə aktuallığını itirməyən, əksinə, hüquqlar bərpa olunana qədər davam edən pozuntu kimi qiymətləndirir. Bu yanaşma qayıdış hüququnun uzunmüddətli və davamlı xarakter daşıdığını təsdiq edir.

Qayıdış hüququnun restitusiya prinsipi ilə əlaqəsi xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq praktika göstərir ki, restitusiya kompensasiya ilə müqayisədə üstünlük təşkil edən bərpa formasıdır. Bunun səbəbi ondan ibarətdir ki, kompensasiya hər zaman pozulmuş hüquqları tam şəkildə bərpa edə bilmir, xüsusilə yaşayış yeri, ailə bağları və mədəni identikliklə bağlı hallarda. Bu baxımdan beynəlxalq orqanlar restitusiya prinsipini qayıdış hüququnun həyata keçirilməsinin əsas mexanizmi kimi qəbul edirlər. Beynəlxalq hüquqi praktikada restitusiya pozulmuş hüquqların bərpasının prioritet forması kimi qəbul

edilir və kompensasiya yalnız alternativ mexanizm kimi nəzərdən keçirilir. Bu yanaşma beynəlxalq təşkilatların sənədlərində və beynəlxalq məhkəmə təcrübəsində ardıcıl şəkildə öz əksini tapmışdır.

Restitusiya institutu və mülkiyyət hüquqlarının bərpası mexanizmi

Məlumdur ki, zorən deportasiyaya məruz qalmış, qovulmuş yüz minlərlə soydaşımızın Qərbi Azərbaycan adlandırdığımız torpaqlarda ev-eşiyi, mülkü, təsərrüfatı qalıb. Bəs qayıdış onların mülkiyyət hüquqlarının bərpasını, maddi zərərin ödənilməsi kimi təbii tələbləri nəzərdə tuturmu? – Qayıdış hüququnun real məzmun kəsb etməsi onun mülkiyyət hüququ ilə qarşılıqlı əlaqəsindən birbaşa asılıdır. Beynəlxalq hüquq təcrübəsi göstərir ki, məcburi köçürülmə, deportasiya və ya silahlı münaqişələr nəticəsində əhalinin əvvəlki yaşayış yerlərini tərk etməsi, bir qayda olaraq, həmin şəxslərin daşınmaz və daşınar əmlak üzərində hüquqlarının pozulması ilə müşayiət olunur. Bu baxımdan beynəlxalq hüquqi doktrinada qayıdış hüququ mülkiyyət hüququnun bərpası ilə sıx bağlı kompleks hüquqi mexanizm kimi nəzərdən keçirilir. Bir əsrdə qismətinə dörd dəfə deportasiya yazılmış Qərbi azərbaycanlı soydaşlarımızın həmin hüquqlarının bərpası da qayıdış ideyasının əsas məqsədlərindən birini təşkil edir.

Avropa hüquq sistemində bu hüquq daha konkret şəkildə Avropa İnsan Hüquqları Məhkəməsi presedentləri vasitəsilə inkişaf etdirilmişdir. Avropa İnsan Hüquqları Konvensiyasına əlavə edilmiş 1 saylı Protokolun 1-ci maddəsi mülkiyyət hüququnun qorunmasını təmin edir və dövlətlərin şəxslərin mülkiyyətinə hörmət etməli olduğunu təsbit edir [3]. Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnda bu norma geniş şərh olunaraq münaqişə nəticəsində öz mülkiyyətindən istifadə edə bilməyən şəxslərin hüquqlarının pozulması kimi qiymətləndirilmişdir. Bu yanaşma qayıdış hüququ ilə mülkiyyət hüququ arasında birbaşa əlaqəni gücləndirmişdir.

AİHM presedent hüququnun təhlili göstərir ki, mülkiyyət hüququ yalnız formal mülkiyyət hüququ kimi deyil, həm də “faktiki istifadə hüququ” kimi şərh olunur. Bu yanaşma Loizidou işində və digər işlərdə təsbit olunmuşdur və qayıdış hüququnun hüquqi məzmununun genişləndirilməsinə səbəb olmuşdur [7].

Beynəlxalq hüquqi praktikada mülkiyyət hüququnun pozulması hallarında əsas bərpa mexanizmi kimi restitusiya prinsipi tətbiq edilir. Restitusiya pozulmuş hüquqların əvvəlki vəziyyətə qaytarılmasını nəzərdə tutur və beynəlxalq hüquqda kompensasiyaya nisbətən üstün mexanizm hesab olunur. Bu yanaşma beynəlxalq hüququn ümumi prinsiplərindən biri kimi qəbul edilir və dövlət məsuliyyəti ilə bağlı doktrinalarda da öz əksini tapmışdır. Restitusiya mexanizminin mahiyyəti ondan ibarətdir ki, hüquq pozuntusunun nəticələri mümkün qədər aradan qaldırılmalı və zərərçəkmiş şəxsin əvvəlki hüquqi vəziyyəti bərpa edilməlidir.

Beynəlxalq hüquqi doktrinada restitusiya aşağıdakı səbəblərə görə prioritet mexanizm hesab olunur:

1.Tam hüquqi bərpa effekti – kompensasiyadan fərqli olaraq restitusiya hüququn özünü bərpa edir;

2.Məkan və identiklik faktoru – mülkiyyət yalnız iqtisadi resurs deyil, həm də sosial və mədəni bağlılıqdır;

3.Qayıdış hüququ ilə funksional əlaqə – restitusiya olmadan qayıdış hüququnun reallaşması mümkün deyil.

Bu yanaşma BMT çərçivəsində qəbul edilmiş Pinheiro prinsiplərində də təsbit olunmuşdur. Həmin prinsiplərə görə, qaçqın və məcburi köçkünlər öz mülkiyyətlərini geri almaq hüququna malikdirlər və bu hüquq kompensasiya ilə əvəz edilə bilməz, yalnız istisna hallarda alternativ mexanizm tətbiq edilə bilər [7].

Postmünaqişə tənzimlənməsi praktikasında mülkiyyət hüququnun bərpası xüsusi institusional mexanizmlər vasitəsilə həyata keçirilir. Bu mexanizmlərə mülkiyyət komissiyalarının yaradılması, qeydiyyat sistemlərinin bərpası, mübahisələrin həlli prosedurlarının müəyyən edilməsi və qərarların icrası üçün beynəlxalq nəzarət mexanizmlərinin tətbiqi daxildir. Bu model beynəlxalq praktikada effektiv mexanizm kimi qəbul edilir və qayıdış prosesinin hüquqi əsasını formalaşdırır. Bosniya modelində CRPC, Kosovoda isə xüsusi mülkiyyət qurumları bu funksiyanı yerinə yetirmişlər. Həmin institutlar mübahisələri araşdırmaq, hüquqi qərarlar qəbul etmək və restitusiya proseslərini idarə etməyə mükəlləfdirlər.

Beynəlxalq praktikada, xüsusilə Bosniya və Kosovo modellərində, restitusiya əsas mexanizm kimi tətbiq edilmişdir [5; 6]. Müxtəlif modellərin müqayisəsi restitusiya mexanizminin tətbiqində fərqli yanaşmaların mövcudluğunu göstərir:

- Bosniya modeli – klassik restitusiya yanaşması, mülkiyyətin qaytarılması prioritetdir;

- Kosovo modeli – restitusiya + beynəlxalq idarəetmə və təhlükəsizlik təminatı;
- Kipr modeli – restitusiya ilə yanaşı, kompensasiya mexanizmlərinin inkişafı;

Belə bir yanaşma göstərir ki, restitusiya yalnız hüquqi norma deyil, idarə olunan institusional prosesdir. Eləcə də, mülkiyyətin bərpası qayıdışın formal deyil, real şəkildə həyata keçirilməsi üçün zəruri şərtdir. Aparılan təhlil əsasında söyləmək olar ki, mülkiyyət hüququ və restitusiya mexanizmi qayıdış hüququnun həyata keçirilməsinin mərkəzi elementidir.

Nəticə etibarilə, restitusiya arxitekturasının təhlili göstərir ki, mülkiyyət hüquqlarının bərpası qayıdış hüququnun reallaşdırılmasının əsas şərtidir.

Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın kompensasiya tələbi də aktualdır və hüquqi aktlarla dəstəklənir. Kompensasiya beynəlxalq hüquqda restitusiya mümkün olmadıqda tətbiq edilən subsidiar mexanizm kimi çıxış edir. Beynəlxalq hüquqi yanaşmaya görə, kompensasiya əsas mexanizm deyil, yalnız əlavə vasitə kimi çıxış edir. Bu yanaşma beynəlxalq sənədlərdə və məhkəmə presedentlərində də öz əksini tapmışdır. Kompensasiya yalnız mülkiyyətin fiziki qaytarılması mümkün olmadıqda tətbiq edilir və bu halda belə, zərərçəkmiş şəxsin hüquqlarının mümkün qədər tam bərpası nəzərdə tutulur. Kompensasiyanın məhdudiyyətləri aşağıdakılardır: sosial və mədəni bağları bərpa etmir; məkanla bağlı identiklik elementini əvəz edə bilmir; qayıdış hüququnun tam reallaşdırılmasını təmin etmir.

Kipr modelində, xüsusilə Demopoulos qərarında, AİHM müəyyən etmişdir ki, effektiv daxili kompensasiya mexanizmi mövcud olduqda bu vasitə alternativ hüquqi həll kimi qəbul edilə bilər [10]. Lakin bu yanaşma restitusiya prinsipini aradan qaldırmır, yalnız onu tamamlayır.

Bu kontekstdə aşağıdakı hüquqi nəticə formalaşır: kompensasiya hüququn substitutu deyil, onun natamam bərpası formasıdır. Bu, beynəlxalq hüquqda mühüm doktrinal fərqləndirmə yaradır və restitusiya prinsipinin üstün mövqeyini qoruyur.

Qayıdış hüququnun həyata keçirilməsi yalnız normativ hüquqi təsbitlə məhdudlaşmır. Beynəlxalq hüquq bu hüququn təmin olunması üçün dövlətlərin üzərinə konkret öhdəliklər də qoyur. Bu öhdəliklərə təhlükəsiz qayıdışın təmin edilməsi, diskriminasiyanın aradan qaldırılması, mülkiyyət hüquqlarının bərpası və qayıdış prosesinin beynəlxalq nəzarət mexanizmləri ilə müşayiət olunması daxildir. Nəticə etibarilə, beynəlxalq hüquqi tənzimləmə alətləri qayıdış hüququnun yalnız deklarativ deyil, praktik həyata keçirilə bilən hüquq kimi formalaşmasına xidmət edir.

Beləliklə, beynəlxalq hüquqda mülkiyyət hüququ və restitusiya mexanizmi qayıdış hüququnun həyata keçirilməsinin əsas elementlərindən biri kimi çıxış edir. Bu mexanizm həmçinin Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın əvvəlki yaşayış yerlərinə qayıtmasının hüquqi əsasını yaradır, mülkiyyət hüquqlarının bərpasını təmin edir və postmünaqişə dövründə hüquqi sabitliyin formalaşmasına xidmət edir.

Postmünaqişə qayıdışın beynəlxalq praktikası

Qərbi Azərbaycana ləyaqətli və hüquqi qayıdışdan bəhs edərkən onun hansı təcrübə əsasında reallaşdırıla biləcəyi imperativi ilə qarşılaşırıq. Beynəlxalq hüquq bununla bağlı müəyyən “reseptlər” təklif edir.

Postmünaqişə qayıdış mexanizmlərinin formalaşmasında Bosniya və Herseqovina modeli beynəlxalq hüquqi praktikada ən sistemli və institusional nümunələrdən biri hesab olunur. 1992–1995-ci illər Bosniya münaqişəsi nəticəsində əhalinin kütləvi şəkildə məcburi köçürülməsi, etnik təmizləmə siyasəti və mülkiyyət hüquqlarının geniş miqyasda pozulması beynəlxalq ictimaiyyəti qayıdış və restitusiya mexanizmlərinin hüquqi əsaslarını formalaşdırmağa sövq etmişdir.

Bosniya modelinin hüquqi əsasını 1995-ci il Dayton Sülh Sazişinin 7-ci Əlavəsi təşkil edir. Həmin sənəd qaçqınların və məcburi köçkünlərin öz əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququnu təsbit etmişdir. Sazişdə açıq şəkildə qeyd olunur ki, münaqişə nəticəsində köçürülmüş bütün şəxslər öz evlərinə qayıtmaq, mülkiyyətlərini bərpa etmək və müharibə nəticəsində itirilmiş hüquqlarını geri almaq hüququna malikdirlər [Dayton Peace Agreement, Annex 7, 1995]. Bu modelin mühüm xüsusiyyəti ondan ibarətdir ki, qayıdış hüququ yalnız siyasi bəyanat kimi deyil, konkret institusional mexanizmlərlə təmin olunmuşdur.

Bosniya modelinin digər mühüm elementləri beynəlxalq nəzarət mexanizminin tətbiqi və təhlükəsiz qayıdış prinsipidir. Bu cür yanaşma postmünaqişə qayıdışın yalnız hüquqi deyil, kompleks təhlükəsizlik mexanizmləri ilə müşayiət olunmalı olduğunu göstərmişdir.

Qərbi Azərbaycan nümunəsinə tətbiq etdikdə Bosniya modelinə əsaslanan birinci mərhələ normativ-hüquqi tanınma və siyasi çərçivəni nəzərdə tutur. Məqsəd Qərbi azərbaycanlıların qayıdış hüququnun beynəlxalq hüquq subyekti kimi rəsmən tanınması və Ermənistanın bu hüquqa dair öhdəliklərinin hüquqi çərçivəyə salınmasından ibarətdir. Əsas addımlar hansılar ola bilər? Qayıdış hüququnun ikitərəfli sülh sazişi layihələrinə, beynəlxalq vasitəçilik sənədlərinə, BMT və ya ATƏT çərçivəli razılaşmalara daxil edilməsi təsirli normativ mexanizm kimi dəyərləndirilə bilər.

Beləliklə, Bosniya və Herseqovina modeli beynəlxalq hüquqi praktikada qayıdış hüququnun həyata keçirilməsi üçün kompleks mexanizm kimi çıxış edir. Bu model qayıdış hüququnun normativ təsbitini, mülkiyyət hüquqlarının bərpasını, beynəlxalq nəzarət mexanizmlərini və təhlükəsizlik təminatlarını birləşdirən sistemli yanaşma təqdim edir. Bu səbəbdən Bosniya modeli postmünaqişə qayıdışın hüquqi arxitekturasının formalaşmasında mühüm presedent kimi qiymətləndirilir.

Kosovo modeli. Postmünaqişə qayıdışın beynəlxalq hüquqi mexanizmlərinin formalaşmasında Kosovo modeli də mühüm əhəmiyyət kəsb edir. 1998–1999-cu illər münaqişəsi nəticəsində Kosovo ərazisində genişmiqyaslı məcburi köçürülmə baş vermiş, yüz minlərlə insan öz yaşayış yerlərini tərk etmişdir. Münaqişədən sonra qayıdış hüququnun təmin edilməsi, mülkiyyət hüquqlarının bərpası və əhalinin əvvəlki yaşayış yerlərinə reinteqrasiyası beynəlxalq idarəetmə mexanizmlərinin əsas istiqamətlərindən biri olmuşdur.

Kosovo modelinin hüquqi əsasını BMT Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsi təşkil edir. Qətnamədə qeyd olunur ki, münaqişə nəticəsində köçürülmüş bütün şəxslərin öz evlərinə qayıtmaq və mülkiyyət hüquqlarını bərpa etmək hüququ təmin edilməlidir.

Kosovo modelində qayıdış və mülkiyyət hüquqlarının bərpası üçün xüsusi institusional mexanizmlər yaradılmışdır. BMT-nin mülki administrasiyası (UNMIK) çərçivəsində Mənzil və Mülkiyyət Direktorluğu (Housing and Property Directorate) və daha sonra Mülkiyyət İddiaları Komissiyası (Housing and Property Claims Commission) fəaliyyət göstərmişdir. Bu qurumların əsas məqsədi münaqişə nəticəsində əmlakından məhrum edilmiş şəxslərin müraciətlərini araşdırmaq, mübahisələri həll etmək və mülkiyyət hüquqlarının bərpası ilə bağlı qərarlar qəbul etmək olmuşdur. Bu mexanizm Bosniya modelinə bənzər şəkildə restitusiya prinsipinə əsaslanmışdır.

Qərbi Azərbaycan kontekstində də qayıdışın ilkin mərhələlərində beynəlxalq monitorinq missiyasının iştirakı, hüquq-mühafizə orqanlarının fəaliyyətinə nəzarət, minalardan və hərbi qalıqlardan təmizləmə, zorakılıq və diskriminasiya hallarına qarşı sürətli hüquqi müdaxilə mexanizmləri olmadan repatriasiyanın davamlı və təhlükəsiz olması mümkün deyil. Belə bir yanaşma qayıdış hüququnun yalnız formal hüquq kimi deyil, davamlı sosial proses kimi həyata keçirilməsinin zəruriliyini göstərmişdir.

Növbəti addım kimi “Qərbi Azərbaycanlıların Qayıdışı üzrə Bəyannamə” tipli normativ sənədin qəbulu məqsədəuyğun sayıla bilər ki, o da özündə könüllü, təhlükəsiz və ləyaqətli qayıdışın tanınması, diskriminasiyanın yolverilməzliyi, mülkiyyət hüquqlarının qorunması kimi həlqələri ehtiva etmiş olardı.

Beləliklə, Kosovo modeli beynəlxalq hüquqi praktikada qayıdış hüququnun həyata keçirilməsi üçün institusional və təhlükəsizlik mexanizmlərinin birləşdirildiyi kompleks yanaşmanı nümayiş etdirir. Bu model postmünaqişə dövründə qayıdış hüququnun təmin olunması üçün beynəlxalq idarəetmə, restitusiya mexanizmi və təhlükəsizlik təminatlarının qarşılıqlı əlaqəsini göstərən mühüm presedent kimi çıxış edir.

Kipr modeli. Postmünaqişə qayıdışın beynəlxalq hüquqi praktikası çərçivəsində Kipr modeli xüsusi yer tutur. 1974-cü il hadisələrindən sonra adanın faktiki bölünməsi nəticəsində həm yunan, həm də türk icmalarına mənsub əhali kütləvi şəkildə köçürülmüş, mülkiyyət hüquqları geniş miqyasda pozulmuşdur. Bu vəziyyət uzunmüddətli hüquqi mübahisələrə səbəb olmuş və nəticədə qayıdış hüququ ilə mülkiyyət hüququnun qarşılıqlı əlaqəsi Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnda sistemli şəkildə formalaşmışdır.

Kipr modelinin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada qayıdış və restitusiya məsələləri birbaşa beynəlxalq məhkəmə presedentləri vasitəsilə inkişaf etmişdir. Bu baxımdan Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları həlledici rol oynamışdır. Xüsusilə Loizidou işi bu sahədə fundamental presedent hesab olunur. Məhkəmə bu işdə qərara gəlmişdir ki, mülkiyyətə çıxışın uzun müddət məhdudlaşdırılması davam edən hüquq pozuntusu təşkil edir və bu hüquq zamanla qüvvədən düşmür [7].

Bu yanaşma sonradan digər işlərdə də inkişaf etdirilmişdir. Xüsusilə “Kipr Türkiyəyə qarşı” işində məhkəmə qeyd etmişdir ki, köçürülmüş şəxslərin mülkiyyət hüquqlarının sistemli şəkildə pozulması yalnız fərdi deyil, həm də kollektiv hüquq pozuntusu xarakteri daşıyır [8]. Bu qərar qayıdış hüququnun

yalnız fərdi hüquq kimi deyil, geniş sosial və hüquqi fenomen kimi qiymətləndirilməsinə gətirib çıxarmışdır.

Kipr modelində restitusiya və kompensasiya məsələləri paralel şəkildə inkişaf etmişdir. Modelin mühüm xüsusiyyətlərindən biri qayıdış hüququnun realizə edilməsinin siyasi reallıqlarla qarşılıqlı əlaqədə qiymətləndirilməsidir. Bununla yanaşı, Kipr modeli “davam edən pozuntu” (continuing violation) doktrinasının ən aydın tətbiq olunduğu nümunələrdən biridir. Kipr modelinin təhlili göstərir ki, postmünaqişə qayıdışın hüquqi mexanizmləri müxtəlif formalarda həyata keçirilə bilər. Bu modeldə bir tərəfdən beynəlxalq məhkəmə presedentləri, digər tərəfdən isə daxili institusional mexanizmlər paralel şəkildə fəaliyyət göstərir. Bu isə qayıdış hüququnun həyata keçirilməsinin vahid universal modelə malik olmadığını, müxtəlif hüquqi və siyasi şərtlərdən asılı olaraq fərqli mexanizmlərlə təmin oluna biləcəyini göstərir.

Bu məntiq Qərbi azərbaycanlıların vəziyyətinə də tam şəkildə tətbiq edilə bilər.

Bosniya və Herseqovina, Kosovo və Kipr modellərinin müqayisəli hüquqi təhlili göstərir ki, postmünaqişə qayıdışın beynəlxalq-hüquqi arxitekturası vahid universal normativ baza üzərində formalaşsa da, onun tətbiqi konkret siyasi, institusional və təhlükəsizlik şərtlərindən asılı olaraq müxtəlif formalarda reallaşır. Bu modellərin hər biri qayıdış hüququnun həyata keçirilməsi üçün fərqli hüquqi mexanizmlər təqdim etsə də, onların əsasında eyni fundamental prinsiplər dayanır.

İlk növbədə qeyd etmək lazımdır ki, hər üç modeldə qayıdış hüququ beynəlxalq hüququn müstəqil institutu kimi qəbul olunur və onun həyata keçirilməsi dövlətlərin pozitiv öhdəliyi kimi qiymətləndirilir. Bosniya modelində bu hüquq birbaşa beynəlxalq müqavilə səviyyəsində — Dayton Sazişinin müvafiq müddəaları ilə təsbit olunmuşdur [5]. Kosovo modelində qayıdış hüququ BMT mandatı çərçivəsində beynəlxalq idarəetmə mexanizmi vasitəsilə təmin edilmişdir [6]. Kipr modelində isə bu hüquq əsasən məhkəmə presedentləri vasitəsilə formalaşmış və inkişaf etmişdir [7; 8]. Bu fərqlər göstərir ki, qayıdış hüququnun hüquqi mənbələri müxtəlif ola bilər: müqavilə hüququ, beynəlxalq təşkilatların qərarları və ya məhkəmə presedentləri.

İkinci mühüm nəticə mülkiyyət hüququnun qayıdış hüququnun ayrılmaz elementi olmasıdır. Bütün modellərdə mülkiyyətə çıxışın təmin olunmaması qayıdış hüququnun pozulması kimi qiymətləndirilir.

Üçüncü mühüm element beynəlxalq nəzarət və institusional təminat mexanizmləridir.

Dördüncü mühüm nəticə təhlükəsizlik faktorunun həlledici roludur.

Beşinci mühüm aspekt “davam edən pozuntu” doktrinasının tətbiqidir.

Müqayisəli təhlilin nəticəsi olaraq belə qənaətə gəlmək mümkündür ki, postmünaqişə qayıdışın effektiv modeli aşağıdakı elementlərin sintezini tələb edir: qayıdış hüququnun normativ təsbiti, mülkiyyət hüquqlarının bərpası (ilk növbədə restitusiya yolu ilə), institusional mexanizmlərin yaradılması, beynəlxalq nəzarət və təhlükəsizlik təminatları.

Bu elementlərdən hər hansı birinin zəifliyi qayıdış prosesinin effektivliyinə mənfi təsir göstərir.

Qayıdış hüququnun həyata keçirilməsinin beynəlxalq təminatları: hüquqi mexanizmlərin çərçivəsi

Qayıdış hüququnun beynəlxalq hüquqda tanınması onun avtomatik gerçəkləşməsi demək deyildir. Əksinə, beynəlxalq praktikada ən mühüm problemlərdən biri məhz bu hüququn deklarativ səviyyədən çıxarılaraq real hüquqi və institusional mexanizmə çevrilməsidir. Bu baxımdan qayıdış hüququ yalnız fərdi hüquq kimi deyil, kompleks təminatlar sisteminə əsaslanan hüquqi institut kimi nəzərdən keçirilməlidir.

Bosniya, Kosovo və Kipr modellərinin müqayisəli təhlili göstərir ki, qayıdış hüququnun effektiv həyata keçirilməsi dörd əsas mexanizmin sintezi ilə mümkün olur: təhlükəsizlik, beynəlxalq monitorinq, hüquqi verifikasiya və keçid dövrü idarəetməsi. Bu mexanizmlərin hər biri müstəqil deyil, qarşılıqlı əlaqədə fəaliyyət göstərən vahid hüquqi sistemin elementləridir.

Eyni təcrübədən çıxış edərkən belə bir qənaət hasil olur ki, beynəlxalq sülhməramlı qüvvələrin iştirakı olmadan qayıdış prosesinin effektiv həyata keçirilməsi demək olar ki, mümkün deyil. Bu kontekstdə təhlükəsizlik yalnız hərbi komponent deyil, həm də hüquqi və institusional mühitin sabitliyini əhatə edir. Başqa sözlə, qayıdış hüququnun reallaşması “təhlükəsizlik → hüquq → reinteqrasiya” ardıcıllığı ilə baş verir.

Qayıdış hüququnun həyata keçirilməsinin ilkin və həlledici şərti təhlükəsizlikdir. Bu tezis yalnız praktiki müşahidə deyil, həm də hüquqi məntiqdən irəli gəlir. Hüququn həyata keçirilməsi üçün

minimum şərt onun subyektinin fiziki mövcudluğunun təmin edilməsidir. Əgər qayıdan şəxs üçün real təhlükə mövcuddursa, hüquq faktiki olaraq “kağız üzərində norma”ya çevrilir.

Burada elmi yenilik ondan ibarətdir ki, qayıdış hüququ klassik insan hüquqlarından fərqli olaraq “şərti hüquq” xarakteri daşıyır — yəni onun realizəsi əvvəlcədən müəyyən edilmiş təhlükəsizlik mühitindən asılıdır.

Qayıdış hüququnun həyata keçirilməsində növbəti mühüm element beynəlxalq monitorinq mexanizmidir. Təcrübə göstərir ki, dövlətlərin üzərinə qoyulan öhdəliklərin icrası yalnız daxili mexanizmlərlə məhdudlaşdırıldıqda effektiv olmur. Bu baxımdan beynəlxalq təşkilatların iştirakı hüququn reallaşmasına əlavə təminat yaradır.

Qayıdış prosesində ən mürəkkəb hüquqi problemlərdən biri “Kim qayıdır?” və “Hansı hüquqa əsasən?” sualları ilə bağlıdır. Bu sualların cavabı verifikasiya mexanizmi vasitəsilə müəyyən edilir.

Verifikasiya yalnız texniki prosedur deyil, hüquqi legitimliyin əsasını təşkil edir. O, aşağıdakı funksiyaları yerinə yetirir: mülkiyyət hüququnun sübut olunması; əvvəlki yaşayış statusunun təsdiqi və hüquqi varisliyin müəyyən edilməsi.

Bosniya və Kosovo modellərində xüsusi komissiyaların yaradılması göstərir ki, verifikasiya olmadan restitusiya mexanizmi hüquqi əsasdan məhrum olur.

Hasil olan konseptual nəticə bundan ibarətdir ki, qayıdış hüququnun həyata keçirilməsi sübut hüququ ilə sıx bağlıdır və bu, onu klassik insan hüquqlarından fərqləndirən mühüm xüsusiyyətdir. Bu mexanizm olmadan restitusiya prosesi qeyri-müəyyən və mübahisəli xarakter alır.

Beləliklə, qayıdış hüququ müasir beynəlxalq hüquqda yalnız fərdi hüquq kimi deyil, kompleks təminat mexanizmləri ilə işləyən çoxsəviyyəli hüquqi institut kimi çıxış edir. Bu yanaşma postmünaqişə reallıqlarında hüququn real tətbiqini mümkün edən əsas konseptual çərçivəni təşkil edir.

Qərbi azərbaycanlıların qayıdışının beynəlxalq-hüquqi modeli: doktrinal əsaslandırma və tətbiq mexanizminin rekonstruksiyası

Qayıdış hüququnun beynəlxalq hüquqda normativ şəkildə təsbit olunması onun konkret münaqişə kontekstlərində avtomatik reallaşmasını təmin etmir. Müasir beynəlxalq təcrübə göstərir ki, bu hüququn effektivliyi yalnız onun mövcudluğu ilə deyil, onun hansı hüquqi və institusional mexanizmlər vasitəsilə həyata keçirilməsi ilə müəyyən olunur. Bu baxımdan Qərbi azərbaycanlıların qayıdışı problemi klassik insan hüquqları kateqoriyasından çıxaraq, kompleks hüquqi mühəndislik tələb edən xüsusi hal, normativ hüququn icraedici mexanizmə transformasiyası problemi kimi nəzərdən keçirilməlidir.

Bu kontekstdə təklif olunan model beynəlxalq hüququn mövcud doktrinal əsaslarını mexaniki şəkildə tətbiq etməyi deyil, onları konkret regional reallıqlara uyğunlaşdıraraq yeni bir hüquqi konstruksiyanın formalaşdırılmasını nəzərdə tutur. Burada əsas məqsəd qayıdış hüququnu abstrakt norma səviyyəsindən çıxararaq, onun icra oluna bilən hüquqi mexanizmə çevrilməsinin nəzəri və praktik əsaslarını müəyyən etməkdir.

Qərbi azərbaycanlıların qayıdış hüququnun əsaslandırılması yalnız klassik “öz ölkəsinə qayıtmaq hüququ” anlayışı ilə məhdudlaşmır. 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 12 (4)-cü maddəsində istifadə olunan “öz ölkəsi” anlayışı beynəlxalq hüquqi doktrinada geniş interpretasiya olunur və yalnız formal vətəndaşlıqla deyil, faktiki və davamlı bağlılıqla izah edilir [2;11].

Məhz belə bir geniş interpretasiya Qərbi Azərbaycan kontekstində hüquqi əsaslandırmanın əsasını təşkil edir. Çünki bu yanaşma qayıdış hüququnu yalnız dövlət-vətəndaş münasibəti çərçivəsində deyil, ərazi, mülkiyyət və sosial bağlılıq əsasında formalaşan hüquq kimi təqdim etməyə imkan verir.

Bundan əlavə, beynəlxalq məhkəmə praktikasında formalaşmış “davam edən pozuntu” doktrinası bu hüququn zaman baxımından məhdudlaşdırılmadığını təsdiq edir. Xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş Loizidou və Kipr işləri üzrə qərarlar göstərir ki, mülkiyyətə çıxışın və əvvəlki yaşayış imkanının məhdudlaşdırılması yalnız keçmişdə baş vermiş fakt deyil, davam edən hüquq pozuntusudur [7].

Bu yanaşma Qərbi azərbaycanlıların qayıdış hüququnun hüquqi baxımdan “köhnəlmiş iddia” kimi deyil, aktual və davam edən hüquq tələbi kimi irəli sürülməsinə imkan yaradır. Qayıdış hüququnun icrası yalnız onun subyektləri dəqiq müəyyən edildikdə mümkündür. Əks halda hüquq abstrakt kateqoriya olaraq qalır. Beynəlxalq təcrübə göstərir ki, bu mərhələ hüquqi baxımdan ən mürəkkəb və eyni zamanda ən həssas mərhələdir. Bosniya və Kosovo təcrübəsi sübut edir ki, belə hallarda xüsusi verifikasiya mexanizmləri yaradılmadan qayıdış prosesi hüquqi baxımdan qeyri-müəyyən qalır. Mülkiyyət sənədlərinin, arxiv məlumatlarının və yaşayış faktının sübut edilməsi yalnız texniki məsələ deyil, hüquqi

legitimliyin əsas elementidir. Bu mexanizmin yaradılması qayıdış hüququnun fərdi hüquq kimi reallaşmasını təmin edir və onu kollektiv iddiadan hüquqi cəhətdən əsaslandırılmış fərdi tələbə çevirir.

Beləliklə, mülkiyyət hüququ qayıdış modelinin mərkəzi elementi kimi çıxış edir.

Qayıdış hüququnun klassik insan hüquqlarından fərqli xüsusiyyəti onun təhlükəsizlik mühitindən asılı olmasıdır. Beynəlxalq təcrübə göstərir ki, təhlükəsizlik təmin edilmədən qayıdış hüququ faktiki olaraq həyata keçirilə bilmir. Bu baxımdan beynəlxalq iştirak (monitorinq, sülhməramlı mexanizmlər, hüquqi nəzarət) hüququn reallaşmasının ayrılmaz elementi kimi çıxış edir. Bu yanaşma qayıdış hüququnun yeni doktrinal interpretasiyasını formalaşdırır: qayıdış hüququ təhlükəsizliklə şərtlənən hüquqdur.

Bu baxımdan Qərbi Azərbaycan modeli hüquqi, institusional və siyasi elementlərin balansına əsaslanmalıdır. Bu isə qayıdış hüququnun yalnız hüquq deyil, idarə olunan hüquqi proses olduğunu göstərir.

Nəticə

Aparılmış tədqiqat göstərir ki, qayıdış hüququ müasir beynəlxalq hüquqda yalnız deklarativ norma kimi deyil, kompleks və çoxsəviyyəli hüquqi institut kimi formalaşmışdır. Bu hüququn effektiv həyata keçirilməsi onun normativ təsbitindən daha çox, tətbiq mexanizmlərinin institusional və funksional keyfiyyətindən asılıdır.

Müqayisəli hüquqi təhlil (Bosniya, Kosovo və Kipr modelləri) göstərir ki, qayıdış hüququnun gerçəkləşdirilməsi mülkiyyət hüquqlarının bərpası (restitusiya); beynəlxalq nəzarət və monitorinq mexanizmlərinin tətbiqi; etibarlı təhlükəsizlik təminatları və institusional icra strukturları kimi elementlərin sintezi ilə mümkün ola bilər.Bu elementlərin qarşılıqlı əlaqəsi qayıdış hüququnun yalnız hüquqi norma deyil, idarə olunan hüquqi proses kimi çıxış etdiyini təsdiq edir.

Beləliklə, Qərbi Azərbaycan kontekstində qayıdış hüququ yalnız siyasi tələb deyil, beynəlxalq hüquq çərçivəsində əsaslandırılmış və həyata keçirilə bilən kompleks hüquqi model kimi təqdim olunur. O, müasir beynəlxalq hüquqda insan hüquqlarının bərpası ilə yanaşı, postmünaqişə sabitliyinin və regional təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayan əsas hüquqi institutlardan biri kimi çıxış edir.

İstifadə olunmuş ədəbiyyat

1. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 10 dekabr 1948-ci il.
2. International Covenant on Civil and Political Rights, 16 December 1966.
3. European Convention on Human Rights. Protocol No. 1, 1952; Protocol No. 4, 1963.
4. Pinheiro Principles on Housing and Property Restitution for Refugees and Displaced Persons. United Nations, 2005.
5. Dayton Peace Agreement. Annex 7: Agreement on Refugees and Displaced Persons, 1995.
6. United Nations Security Council Resolution 1244, 10 June 1999.
7. Loizidou v. Turkey. European Court of Human Rights, Judgment of 18 December 1996.
8. Cyprus v. Turkey. European Court of Human Rights, Judgment of 10 May 2001.
9. Demopoulos and Others v. Turkey. European Court of Human Rights, Decision of 1 March 2010.
10. Kälin W. Guiding Principles on Internal Displacement: Annotations. – Washington: American Society of International Law, 2008.
11. OHCHR. General Comment No. 27: Freedom of Movement (Article 12). UN Human Rights Committee, 1999.

Rəyçi: f.f.d, dosent Həbib Hüseynov